ترك عمل الخير خوفًا من الرياء

Xeyir əməli riyanın gəlməsindən qorxaraq tərk etmək

Şeyx Heysəm Sərhan

"Sünnə" tədris mərkəzinin rəhbəri

Tərcümə edən: İlqar Eyvazoğlu

Azərbaycan dili

اللغة الأذرية

ALSARHAAN.COM

MAHADSUNNAH.COM

بِسْمِ ٱللَّهِ ٱلرَّحْمَٰنِ ٱلرَّحِيمِ

Şeytan insanı bu iki məsələdən birinə salmaq istəyir:

1. Ya insanın saleh əməlini suma (eşitdirmək) və riyakarlıqla (göstəriş) etməyə sövq edər və bunda Allah ﷻ üçün ixlaslı olmaz.
2. Ya da onu yaxşı işi tamamilə tərk etməyə məcbur edər ki, o işin savabını əldə etməsin.

Bəzən şeytan insanın açıqda sədəqə verməsi kimi əməlləri riyaya düşmək qorxusu adı ilə vəsvəsə edib onu itaətlərdən uzaqlaşdırır.

Bu, müsəlmanın çəkinməsi lazım olduğu şeytanın qapılarından olan böyük bir qapıdır.

Sadiq müsəlman şeytanın ona atdığı vəsvəsələrə əhəmiyyət verib, riyaya düşmək qorxusundan itaəti tərk etməz.

Çünki sadiq və rahat olan qəlb gizlidə və aşkarda sahibini doğrulayır.

Şək yoxdur ki riya şirkdir və onu etmək olmaz.

Amma mömin kişi və qadınlara Allahın ﷻ onlara vacib etdiyi Allaha ﷻ dəvət və yaxşılığı əmr edib pisliklərdən çəkindirmək kimi məsələləri riyaya düşmək qorxusundan tərk etməsi də icazəli deyil.

Çünki bu, insanları Allaha ﷻ dəvət etmək və yaxşılığı əmr edib pisliklərdən çəkindirməkdən yayındıran şeytanın hiylələrindən biridir.

Odur ki, müsəlman şeytanın hiylələri və vəsvəsələrini tərk etməli və bunların heç birinə əhəmiyyət verməməlidir.

Əksinə, qardaşlarında vacibləri yerinə yetirməkdə və ya haramlara yüngül baxmaqda qüsurunu gördükdə nəsihət etməsi vacibdir.

Ona kifayət edər ki, Allah ﷻ onun qəlbində ona qarşı olan ixlas və bəndələrinə qarşı olan nəsihət olduğunu bilsin.

Peyğəmbər ﷺ buyurub:

"Doğrudan da əməllər niyyətlərə görədir. Hər kəs etdiyi niyyətin savabına nail olacaqdır. Kimin hicrəti Allaha və rəsuluna olarsa, onun hicrəti Allaha və rəsulunadır. Kimin hicrəti əldə edəcəyi dünya mənfəətinə, yaxud evlənəcəyi qadına görə olarsa, onun hicrəti də ona görədir".[1]

[1] Buxari/1 və Muslim /1907